# Ərtoğrul Cavidin yarımçıq baharı





**Hüseyn Cavidin Ev Muzeyində görkəmli dramaturq Hüseyn Cavidin oğlu – folklorşünas, musiqiçi Ərtoğrul Cavidin anadan olmasının 106-cı ildönümünə həsr olunmuş toplantı keçirilib.**

Mərasimi giriş sözü ilə Hüseyn Cavidin Ev Muzeyinin direktor vəzifəsini icra edən filologiya üzrə fəlsəfə doktoru Validə Həsənova açaraq Ərtoğrul Cavidin qısa, lakin mənalı həyat və yaradıcılıq yolundan, həmçinin Azərbaycan musiqi sənətinin korifeyləri Üzeyir Hacıbəyli və Bülbülün Ərtoğrul Cavidin formalaşmasında, ümumilikdə repressiya illərində Cavidlər ailəsinin həyatında oynadıqları roldan bəhs edib.

Daha sonra muzeyin əməkdaşları Nübar Məmmədova "Ərtoğrol Cavid: Bülbülün səsini, Üzeyirin musiqisini duyan gənc", Aynur Yunusova "Amansız zamanın boğa bilmədiyi istedad" adlı məruzələrlə çıxış ediblər.

Sonda Bülbülün Ev Muzeyinin baş mühafizi Adilə Məmmədova tədbirin mənəvi və mədəni əhəmiyyətini vurğulayıb, çalışdığı müəssisə adından təşkilatçılara təşəkkürünü bildirib.

*XQ*

Xalq qəzeti .-2025.- 24 oktyabr (№ 228).- S.8.